# *Müdafiə Nazirliyi:* Azərbaycan Ordusunun Xankəndini və Şuşanı atəşə tutması xəbəri yalandır

Ermənistan KİV-inin səhər saatlarından başlayaraq, guya, Azərbaycan Ordusunun bölmələrinin Xankəndini raket atəşinə tutması və nəticədə mülki əhaliyə maddi zərər vurulması barədə yaydığı xəbər yalandır və vəziyyətin gərginləşdirilməsinə yönəlib.

* * *

Ermənistan KİV-inin, guya, Azərbaycan Ordusunun bölmələrinin Şuşanı atəşə tutması barədə yaydığı xəbər düşmənin növbəti yalanıdır və vəziyyətin gərginləşdirilməsi məqsədi daşıyır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimiz yalnız düşmənin atəş nöqtələrinə cavab zərbələri endirir.

Azərbaycan.- 2020.- 1 noyabr.- S.5.